


# Dövrü mətbuat

## informasiya sisteminin tərkib hissəsi kimi

*Dövrü məlumat orqanlarına aşağıdakı kommunikasiya vasitələri aiddir: jurnallar, qismən - elmi müşavirə və konfranslarin materialları və elmi cəmiyyətlərin elmi əsərləri. Burada müəllif publikasiyanın vaxtına və onun yayılmasına nəzarət edə bilmir.*

Müəllif çatdırmaq istədiyi informasiyanı təqdim edir, rəyçilər və redaktorlar isə publikasiyanın dəyərini müəyyən edirlər.Orta "dövri nəşr"in əsas xarakteristikaları:

-təkrar (bir qayda olaraq vaxtaşırı) buraxılış;

-dəqiq müəyyən edilmiş fənn sahəsi;

-çap olunan materialların məzmununun keyfiyyətinə nəzarət;

-formal redaksiya strukturu;

-bir qayda olaraq abunə qaydası ilə nəşrin yayılması.

Bu keyfiyyətlərin bəziləri yarıformal kommunikasiya vasitələri üçün də səciyyəvidir. Məsələn, bəzi elmi-texniki hesabatlar və preprintlər rəyverme mərhələsini keçirlər. Digər tərəfdən, eyni mövzuya həsr olunmuş elmi-texniki hesabatlar jurnal məqalələrindən o qədər də fərqlənmir. Yarıformal sənədlərin texniki tərtibatı bəzən çap olunmuş məqalələrdən daha yüksək səviyyədə olur.

Bu situasiyanı mürəkkəbləşdirən amillərdən biri də ondan ibarətdir ki, jurnallara qarşı irəli sürülən tələblər həddindən artıq yüksək tələblərdir: yeni biliklərin çatdırılması; fundamental arxiv rolu; alimlərin professional imicini təmin edən alət. Bu funksiyalar isə, müəyyən baxımlardan, daxilən bir topluda birləşə bilməyən funksiyalardır.

Yeni biliklərin çatdırılmasının səmərəliliyi publikasiyaların operativliyini tələb edir. lakin tam və etibarlı arxiv yazısının əldə edilməsi üçün rəyverme və qiymətləndirmə prosedurları tələb olunur. Bu isə, öz növbəsində, artıq vaxtın sərf edilməsi ilə bağlıdır. Digər tərəfdən, alim haqqında həmkarları əksər hallarda publikasiyaların miqdarından çıxış edərək təsəvvür yaradırlar. Buna görə alimlər mümkün qədər çox məqalə dərc etməyə çalışırlar. Bəzi hallarda hətta məqalənin elmi dəyərinə əhəmiyyət vermədən.

Mövcud çətinlikləri mürəkkəbləşdirən amillərdən biri də -fənlərarası tədqiqatların artmasıdır (astrofizika, biokimya, qeofizika). Bu cür məqalələrin çap olunması zamanı alim böyük çətinliklərlə rastlaşır.

Jurnalların funksiyalarının bu ziddiyyətləri, şübhəsiz, qeyri-formal və yarımformal kommunikasiya vasitələrin artmasına səbəb olur.

Qeyri-formal kommunikasiya növlərindən biri superjurnal ola bilər. Burada 10, yaxud daha çox ilkin jurnallardan ən yaxşı məqalələr çap oluna bilər. Bu cür jurnalın üstün cəhətlərindən biri də odur ki, burada ümumi informasiyaya daha çox yer verilə bilər.

İnformasiya xidmətlərinin (referatlaşdırma. indeksləşdirmə) istehlakçılar tərəfindən maliyyələşdirilməsi arqumenti də diqqətəlayiqdir.

Dəyişən informasiya tələbat və imkanları ilkin jurnalların xərclərinin kompensasiyası üçün daha mükəmməl mexanizmlərin işlənməsini tələb edir, lakin hələ ki, jurnalların əksəriyyəti "səhifə vergisi" praktikasından geniş istifadə etməyə məcburdur.

İlkin kommunikasiya prosesinin mexanikləşdirilməsinin durmadan artması həm iqtisadi, həm də xidmətin yaxşılaşdırılması baxımından müsbət nəticələr verə bilər. Amerika fizika institutunun tətbiq etdiyi "fizika informasiyanın milli sistemi" buna parlaq misal ola bilər. Bu layihənin əsas mərhələlərindən biri institutun buraxdığı jurnallar üçün hesablayıcı texnikanın köməyi ilə fotokompozisiya vasitələrinin hazırlanması idi. Digər mərhələ fizika üçün yeni klassifikasiya sisteminin yaradılmasını nəzərdə tuturdu. Bu sistem ənənəvi terminoloji indekslərlə bərabər fizika sahəsində ədəbiyyatın massivinin təşkili işində istifadə olunmalıdır. Nəzərdə tutulmuşdur ki, təsnifat, indeksləşdirmə və referatlaşdırma müəllif tərəfindən rəyçilər və redaktorların rəhbərliyi altında müəllif tərəfindən edilməlidir.

İnformasiyanın mikroyazısının müxtəlif formaları da elmi və texniki cəmiyyətlər tərəfindən tədqiq edilməlidir.

Digər dillərdə çap olunan elmi texniki ədəbiyyatın tərcümə edilməsi problemi son vaxtlarda xüsusilə kəskinləşmişdir. Bunun əsas səbəbi-bir çox Asiya ölkələrində (xüsusilə Çində və Yaponiyada) aparılan milli siyasətlə bağlı formalaşmış böyük elmi-texniki ədəbiyyat

massividir.

Bir çox jurnalların tam tərcüməsinə nail olmuşuq. Lakin az yayılmış dillərdən tərcümələr hələ də böyük çətinliklərlə üzləşir.

XX əsrin ortalarından başlayaraq elmi-texniki və texnoloji inqilab şəraitində elmi inkişafın səciyyəvi cəhətlərindən biri elmin özünüdərki prosesinin intensivləşməsidir. Bu isə, öz növbəsində, xüsusi elmi sahənin - elmşünaslıq elminin təkamülü və formalaşmasına gətirib çıxarmışdır. Bu elmin məqsədi - elmin yaranması və inkişafı, fəaliyyət qanunauyğunluqları, differensiasiya və inteqrasiya meylləri, elmi fəaliyyətin struktur və dinamikası, elmi cəmiyyətin digər sosial institutları, maddi və mənəvi həyat sahələri ilə qarşılıqlı əlaqələri, digər bu kimi problemlərin tədqiqidir.

Elmşünaslığın problematikası XX yüzilliyin 30-cu illərində formalaşmağa başlayır və C.Bernalın "Elmin sosial funksiyası" (1939) əsərində təşəkkül tapır.

Elmşünaslığın müstəqil sahə kimi formalaşması 60-cı illərə - elmşünaslığın predmeti və vəzifələri haqqında təsəvvürlərin, elmşünaslığın problemlərini tədqiq edən elm kollektivlərinin yaranması dövrünə aiddir.

Digər sahələrlə yanaşı, elmşünaslıq informasiya ilə bağlı problemləri də tədqiq edir. Elmşünaslığa görə elm, yeni biliklərə yiyələnmək məqsədi ilə yeni məlumatları əldə edən, toplayan və məntiqi işləyən informasiya prosesidir. Bu baxımdan informasiya sistemləri elmşünaslıq və elmmetriya məsələlərinin həllində perspektivli sahədir. İnformasiya axınının artması qanunauyğunluqlarının tədqiqi isə ayrı-ayrı elmlər üzrə tədqiqatların intensivliyini və dinamikasını aşkar edir.

Elmi kommunikasiya məsələləri - alimlərin qarşılıqlı fəaliyyəti, onların professional ünsiyyəti - elmi fəaliyyətin tədqiqi işində mərkəzi yerlərdən birini tutur.

Kommunikasiyanın mövcudluğu - yəni alimlərin intensiv ünsiyyəti - həmişə elmi fəaliyyətin vacib komponentlərindən biri idi. Lakin bu problem yalnız ötən əsrin 50-60-ci illərində elmi tədqiqat obyektinə çevrilmişdir. Bu ilk növbədə, həmin dövrdə geniş miqyaslı (milli və hətta beynəlxalq) elmi - texniki informasiya sistemlərinin meydana çıxması, mexanikləşdirmə və hesablama texnikasının vasitələrinin yaradılması ilə bilavasitə əlaqədar idi.

Təbii ki, burada əsas diqqəti (xüsusilə bu cür sistemlərin yaradılmasının ilk mərhələlərində) elmi - texniki informasiyanın sənədləşdirilmiş vasitələrinin (məqalə, kitab, elmi-texniki hesabatlar, referatlar, icmallar və s.) analizinə doğru yönəldilmişdir. Bu cür vasitələr artıq müəyyən dərəcədə mütəşəkkil hala salınmış, kitabxanalarda, biblioqrafik və referativ xidmətlərdə elmi araşdırmaların aparılması üçün tələb olunan vəziyyətə salınmışdır. Eyni zamanda, sənədlərdə öz əksini tapmayan elmi kommunikasiyaın bütün formaları bu cür sistemlərdə nəzərə alınmırdı.

Lakin bu cür sistemlərin səmərəliliyi - xüsusilə fundamental araşdırmalar sahəsində - nəzərə alınmamış amil olan tədqiqatçılar arasında qeyri-formal kommunikasiya amilindən asılı vəziyyətə düşmüşdür.

Buradan elm üçün vacib olan nəticə əldə edilmişdir: Elmdə kommunikasiya prosesi - mürəkkəb vahid sistemdir, onun ayrı-ayrı komponentləri (formal, qeyri-formal, şifahi, yazılı, şəxslərarası, kütləvi və s.) bir-biri ilə sıx surətdə bağlıdır və onun hansısa birinin digərlərdən ayrı tədqiq olunması qeyri-adekvatdır. Bu vahid sistemin özü də tarixi inkişafın nəticəsidir və onun ayrı-ayrı komponentlərə bölünməsi yalnız vahid sistem çərçivəsində məna daşıya bilər. Təbii ki, bu sistemin hər bir komponentinin tərkibi müxtəlif tarixi dövrlərdə fərqli olacaq.

Kommunikasiya sisteminin mürəkkəbliyinin dərk edilməsi bu problematika ilə bağlı tədqiqatların istiqamətlərinin seçilməsində də öz əksini tapmışdır. Məsələ bundadır ki, 60-cı illərin əvvəllərində kommunikasiya problemlərinin tədqiqatçıları bu problemdə qeyri-formal proseslərin əhəmiyyətini artıq kifayət qədər dərk etmişlər. Lakin bu proseslərin strukturu və məzmunu haqqında onların təsəvvürləri olduqca səthi idi və əsasən elmi-tarixi materiallarla məhdudlaşırdı. Məhz bu səbəbə görə 60-cı illərdə qeyri-formal elmi kommunikasiya probleminin müxtəlif aspeklərinə dair tədqiqatlar xüsusilə geniş yayılmışdır. Tədqiqatların xarakteri praktik tələbatları - elmdə informasiya sistemlərinin səmərəliliyinin artırılmasını özündə əks etdirirdi.

Elmi və elmi fəaliyyəti tədqiq edən sahələrin (fəlsəfə, elmşünaslıq, məntiq, elmin metodologiyası, elmin tarixi, elmin psixologiyası və sosiologiyası) inkişaf təcrübəsi elmin mürəkkəb orqanizm olduğunu təsdiq etməklə tədqiqatın aspektinin (idrak, sosial-psixoloji, təşkilati və s.) dəqiqləşdirilməsi tələbini irəli sürür. Bu tələb bilavasitə elmdə kommunikasiya aspektinin izahı ilə bağlıdır.

Sözün hərfi mənasında elmdə kommunikasiyanı alimlərin və elmi fəaliyyətin digər agentlərinin əlaqə, ünsiyyət prosesi kimi qiymətləndirmək mümkündür. Lakin bu tərif elmi fəaliyyətin bu aspektinin spesifikasını aşkarlamır, sadəcə olaraq "kommunikasiya" terminini dilimizin ekvivalentləri olan "əlaqə", "ünsiyyət" anlayışları ilə əvəz edir.

**Nailə Mehrəliyeva,**
**pedaqoji elmlər namizədi,**
**dosent**